

# Ürəklərdə daima yaşayan Milli Qəhrəman

**Azərbaycanın müstəqilliyi və torpaqlarımızın müdafiəsi uğrunda canını fəda edən igid Vətən oğulları tariximizdə əbədi iz qoymuşdur. Onlardan biri də Tahir Həsənovdur. 55 illik yubileyi münasibətilə qəhrəmanın həyat və döyüş yoluna nəzər salmaq, onun xatirəsini yad etmək vətəndaşlıq borcumuzdur.**

Vətənə, torpağa olan sevgisi onu gənc yaşlarından hərbi sahəyə yönəltmişdi. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə o, xüsusi şücaət göstərmiş, bir çox əməliyyatlarda iştirak etmişdir.

Tahir Həsənov 22 fevral 1970-ci ildə Bakı şəhərində doğulub. 1987-ci ildə orta məktəbi bitirib. 1988-1990-cı illərdə hərbi xidmətdə olub. 1990-cı ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olub. Ailənin tək övladı olmasına baxmayaraq, ikinci kursdan könüllü olaraq Vətənin müdafiəsinə yollanıb. Həqiqi hərbi xidmətdə desant bölüyündə xidmət etdiyi üçün kəşfiyyat qrupuna komandir təyin edilib.

Tahir Həsənov Qarabağ uğrunda döyüşlərdə göstərdiyi igidliklərlə adını tarixə yazdı. O, düşmənə qarşı mətanətlə vuruşaraq silahdaşlarına nümunə oldu, son nəfəsinə qədər Vətən torpağını müdafiə etdi. Tahir Həsənovun qəhrəmanlığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli fərmanı ilə Həsənov Tahir Tofiq oğlu Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. 1993-cü ildə Nazirlər Kabinetinin qərarı ilə Bakı şəhəri 23 nömrəli tam orta məktəbə Milli Qəhrəman Tahir Həsənovun adı verilmişdir. 1994-cü il 4 sentyabr tarixində ümummilli lider Heydər Əliyev həmin məktəbdə Milli Qəhrəman Tahir Həsənovun şərəfinə qoyulmuş xatirə lövhəsinin açılışında iştirak etmişdir.




Anadan olmasının 55-ci ildönümündə Tahir Həsənovun keçdiyi şərəfli yolu bir daha xatırlayır, onun kimi qəhrəmanların fədakarlığını gələcək nəsillərə çatdırmağın vacibliyini vurğulayırıq. O, yalnız bir ailənin deyil, bütün Azərbaycan xalqının oğlu, fəxridir. Onun ruhu qarşısında baş əyir, əbədiyaşar xatirəsini ehtiramla yad edirik.

**Aybəniz QULİYEVA,**
**23 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi.**